ƏDƏBİ KÖRPÛ

Aylıq Ədəbi Dərgi

ادبی کۆرپو

آیلیق ادبی درگی

Yəhya ŞEYDA

9. sayı yay. Haziran 2019

۹.جی سای یای. تیر۱۳۹۸

BU SAYIDA

Kamıl QƏHRMANOĞLU
Tohid NAMVƏR
Duman SƏFƏROĞLU
Sürəyya XLIQ XIYAVI
Bəhrüz SƏDIQ
Əli CƏVADPUR
Kənan AYDINOĞLU
ELVİN NURİ
Haci LOĞMAN
Elnur UĞUR ABDİYEV
Əbülfət MƏDƏTOĞLU
Gülgəz Yaqub
Təcnis QURBAN
Ayaz ARABAÇI
Tofiq YUSIF
Şöhlət ƏFŞAR
Şəhla NORUZI
Səxavət İZZƏTİ
Milli DAŞQIN
Şəmsəddin HƏKƏRI
Karacakız EMI ÖZTÜRK
Naibe YUSUBLU
Yusdf NƏĞMƏKAR
Elshan AZIM
ARZU GÖYTÜRK
Həmid GƏNCƏ
Hacer ALIOĞLU
Abbas NECCAR OGLU
Abdull CABAR ABDİ
OĞLU(HAK AŞIK)
Mohammed AMİN AREF
Aypara MEHMAN
Tayyib ATMACA
Nigar ARIF
Eldar İSMAYIL
Ramiz QUSARÇAYLI

بو سایدا

کامیل قهرمان اوغلو
توحیدنامور
دومان سفراوغلو
ثریا خلیق خیاوی
بهروز صدیق
علی جوادپور
کنعان آیدین اوغلو
ائلوین نوری
حاجی لغمان
ائلنور اوغور عبداله اوف
ابولفتح مدد اوغلو
گولگز یعقوب
تجنیس قوربان
آیاز آراباچی
توفیق یوسف
اوزمک چتیندیر
شهلا نوروزی
سخاوت عزتی
میللی داشقین
شمس الدّین هکری
قاراجاقیز امی اؤزتورک
نایبه یوسوبلو
یوسف نغمه کار
ائلشن عظیم
آرزو گؤی تورک
حمید گنجه
هاجر عالی اوغلو یاقوتی
عباس نجار اوغلو
حاق عاشیق عبدالجبار
عبدی اوغلو
محمد امین عارف
آپارا مئهمان
طیب آتماجا
نیگار عاریف
ائلدار اسمایيل
رامیز قوسارچایلی

ƏDƏBİ KÖRPÛ
Aylıq Edebi Dergi

Yayın Yönetmeni
Səxavet İzzəti

Yazışma Adresi

edebi.korpu@gmail.com
9.Sayı
Yaz. Haziran 2019
(e-dergi)

آیلیق درگی
آیلیق ادبی درگی

یؤنتمن
سخاوت عزتی

یازیشما عنوانی

edebi.korpu@gmail.com
9.سای
یاز خرداد.۱۳۹۸
(نت درگی سی)

BAŞ SÖZ YERİNƏ

BIL OĞLUM

Sarhat KABAKLI

Gün gidende ay gelende gel oğlum
Cihan yanar sen gülende gül oğlum
Bir yol vardır hak yoludur bul oğlum
Yeri bilmek göğü bilmek bil oğlum

Çabuk büyü çabuk yetiş tez oğlum
Çakal gezen şu dağlarda gez oğlum
Gez oğlum
Vatanına göz dikeni ez oğlum.!
Dostun kim düşmanın kim sez oğlum
Tarihini şerefinle yaz oğlum
Yaz oğlum.!

Senden gider sonsuzluğa yol oğlum
Dört bir yana salmalısın kol oğlum
Ekmeğini aç olanla böl oğlum
Haram yeme, hakk uğruna öl oğlum.!

Çabuk büyü çabuk yetiş tez oğlum
Çakal gezen şu dağlarda gez oğlum
Çabuk büyü çabuk yetiş tez oğlum
Hain gezen şu dağlarda gez oğlum
Gez oğlum
Vatanına göz dikeni ez oğlum.!
Dostun kim düşmanın kim sez oğlum
Tarihini şerefinle yaz oğlum
Yaz oğlum.!

Zulüm dolu saltanattan in oğlum
Zalimlere duymalısın kin oğlum
Nefis kibir mantık yutan dev oğlum
Mağrur olma insanları sev oğlum

Çabuk büyü çabuk yetiş tez oğlum
Çakal gezen şu dağlarda gez oğlum
Çabuk büyü çabuk yetiş tez oğlum
Hain gezen şu dağlarda gez oğlum
Gez oğlum
Vatanına göz dikeni ez oğlum.!
Dostun kim düşmanın kim sez oğlum
Tarihini şerefinle yaz oğlum
Yaz oğlum.!
Gez oğlum
Vatanına göz dikeni ez oğlum.!
Dostun kim düşmanın kim sez oğlum
Söz ver bana geç karşıma söz oğlum.!

XƏYALDAKI QIZ

Tohid NAMVƏR

Əlində jurnalı. dönəcək kəndə,
Bulağa enəcək o yaldakı qız.
Şəkili bulağa hər çəkiləndə,
Görüb otanacaq jurnaldakı qız.

Rahat buraxmayır onu külkdə,
Əvvəli küləkdə, sonu küləkdə,
Yellənə-yellənə donu küləkdə,
Uçub hara gedir xəyaldakı qız?!

Gözündə parlayan nəmli kədrdə,
Gözəl naxış vurub üzdəki dərdə,
Dəyməz dırnağına bəlkə şəhərdə,
Nə kınudakı qız, nə zaldakı qız.

Bircə xatirəmdir varım, heçimdə,
Bir gözəl vardımi o qız biçimdə?!
Illərdir, beləcə düşüb içimdə,
Hələdə yol gedir o yoldakı qız.

Çınarlar altıyla yaşıl kölgədə,
Sonuncn gedrdi hərgün cərgədə,
Nə bilim, ilahi bodur bəlkədə,
Mənim istədigim o daldakı qız.

Batmışdı elə bil tanrı iyinə,
Rahatlıq gələrdi başa, beyinə,
Kimi misal çəksəm gözəlliyinə,
Düşüb səcdə qillər misaldakı qız.

خیالداکی قیز

توحیدنامور

الینده ژورنالی. دؤنه جک کنده ،
بولاغا ائنه جک اویالداکی قیز.
شکیلی بولاغا هر چکیلنده،
گؤروب اوتاناجاق ژورنالداکی قیز.

راحات بوراخمایير اونو کولک ده،
اوّلی کولک ده سونو کولک ده،
یئلله نه - یئلله نه دونو کولکده،
اوچوب هارا گئدیر خیالداکی قیز ؟!

گؤزونده پارلایان نملی کدر ده،
گؤزل ناخیش ووروب اوزده کی درده،
دگمز دیرناغینا بلکه شهر ده ،
نه کینوداکی قیز ، نه زالداکی قیز.

بیرجه خاطیرم دیر واریم ، هئچیم ده ،
بیر گؤزل واردی می او قیز بیچیم ده ؟!
ایل لر دیر ، یئله جه دوشوب ایچیمده،
هله ده یول گئدیر او یولداکی قیز.

چینارلار آلتییلا یاشیل کؤلگه ده،
سونونجو گئدردی هرگون جرگه ده ،
نه ییلیم ، الهی بودور بلکه ده،
منیم ایسته دیگیم او دالداکی قیز.

باتمیشدی ائله بیل تانری ایینه،
راحاتلیق گلردی باشا، بئینه،
کیمی میثال چکسم گؤزللیگینه،
دوشوب سجده قیللر میثال داکی قیز.

QOŞLAR QOYSA

Kamıl QƏHRMANOĞLU

Səni bir gün geyərəm yarpağa qüşlar qoysa,
Bitərəm saçlarını çaylağa qüşlar qoysa.

Kaş payız axşamı çənlikdə yenə durnalaşam,
Kaş bu bayquşda göyərçin doğa qoşlar qoysa.

Və külək boylu urulsa bu məni qışqırram,
Bu buludlar bura bülbül yağa qoşlar qoysa.

Hürülərdə məni qarqışlasa qançıl ayaza,
Tökərəm bir günəşi bardağa qoşlar qoysa.

Çal-çamır sır-sıralarda qişin oğlan vaxtı,
Mən gətirrəm yazı burda bağa qoşlar qoysa.

Ah... əgər sel sarası mənlə mübarəklənsə,
Əkərəm gündüzü beş barmağa qoşlar qoysa.

Və deyin qüşlara tənhalığımı uçsunlar,
Gedirəm mən göyərəm bayrağa qoşlar qoysa.

قوش‌لار قویسا

کامیل قهرمان اوغلو

سنی بیر گون گئیه‌رم یارپاغا قوش‌لار قویسا،
بیته‌رم ساچ‌لارینی چایلاغا قوش‌لار قویسا.

کاش پاییز آخشامی چنلیکده یئنه دورنالاشام،
کاش بو بایقوشدا گؤیرچین دوغا قوش‌لار قویسا.

و کولک بویلو اورلسا بو منی قیشقیررام،
بو بولودلار بورا بولبول یاغا قوش‌لار قویسا.

حوری‌لرده منی قارقیشلاسا قانچیل آیازا،
تؤکه‌رم بیر گونشی بارداغا قوشلار قویسا.

چال-چامیر سیر-سیرالاردا قیشین اوغلان واختی،
من گتیررم یازی بوردا باغا قوشلار قویسا.

آه... اگر سئل ساراسی منله موبارکلنسه،
اکَرم گوندوزو بئش بارماغا قوش‌لار قویسا.

و دئیین قوش‌لارا تنهالیغیمی اوچسونلار،
گئدیرم من گؤیه‌رم بایراغا قوش‌لار قویسا.

GÜNƏŞIN YASIDIR BURDA...

Duman SƏFƏROĞLU

Yenə gözlərindən qürşün açırsan,
Yenə ürəyində qiş havası var.
Min ağrı bitirib çıxıb qaçırsan,
Şeirimin köksündə dil yarası var.

Sən gedən yollarda bürünür çənə,
Doğranır içimdə min arzı, dilək.
yenədə sənsizlik daraşır mənə,
Ürək kövşənində qupardır külək.

Mənə bir məzar qaz öz yanağından,
Qoy məndə boy atsın körpə bir arzı.
Çuxdandır ürəyim kal dudağından,
Bir salxım öpüşə qalıb tamarzı.

Günşin yasıdır burda gün batan,
Gözündə bir sixim yağış qoxusu.
Çəkilmir çınarın qolunda yatan,
Qarqanın beynindən qarqış yuxusu.

Məni bir əsımlık istəmir dəniz,
Səni dostağında azadlıq boğur.
Nə qədər çaşimiş alın yazımız,
Bəxtimin gəlini tərsinə doğur.

گونشین یاسیدیر بوردا...

دومان سفراوغلو

یئنه گؤزلریندن قورشون آچیرسان،
یئنه اوریینده قیش هاواسی وار.
مین آغری بیتیریب چیخیب قاچیرسان،
شعریمین کؤکسونده دیل یاراسی وار.

سن گئدن یوللاردا بورونور چنه،
دوغرانیر ایچیمده مین آرزی، دیلک.
یئنه ده سنسیزلیک داراشیر منه،
اورک کؤوشه نینده قوپاردیر کولک.

منه بیر مزار قاز اؤز یاناغیندان،
قوی منده بوی آتسین کؤرپه بیر آرزی.
چوخداندیر اوریم کال دوداغیندان،
بیر سالخیم اؤپوشه قالیب تامارزی.

گونشین یاسیدیر بوردا گون باتان،
گؤزونده بیر سیخیم یاغیش قوخوسو.
چکیلمیر چینارین قولوندا یاتان،
قارقانین بئینیندن قارقیش یوخوسو.

منی بیر اسیملیک ایسته میر دنیز،
سنی دوستاغیندا آزادلیق بوغور.
نه قدر چاش ایمیش آلین یازیمیز،
بختیمین گلینی ترسینه دوغور.

QARA YAZILAR

Sürəyya XLIQ XIYAVI

qara yazılar
ıp olur yenə
buğazımdan bağlanıram,
səni oruc tutmam gərk,
yuxsa batil olar gözəlliklər!!!

vəbiz
bir ömürdür
birbirimizi
oruc tütmüşüq;
obaşdansız
iftarsız...

baxıram,
ürəyimə;
gözəllik sənsən!
var sənsən!
damar sənsən!
nə var sənsən!

baxıram
şəhərin əllərinə,
batil olan hayatlarda;
hansı gözəlliklər yox olacaq??!
evlər, ölüm ilə evlənıblər.

şəhər,
bir ömürdür, oruc tütür
obaşdansız
iftarsız...
batil kimdir? qatıl kim?!

قارا یازیلار

ثریا خلیق خیاوی

قارا یازیلار
ایپ اولور یئنه
بوغازیمدان باغلانیرام،
سنی اوروج توتمام گرک،
یوخسا باطیل اولار گؤزللیکلر!!!

ویز
بیر عؤموردور
بیریریمیزی
اوروج توتموشوق؛
اوباشدانسیز
ایفطارسیز...

باخیرام،
اوره یمه؛
گؤزللیک سنسن!
وار سنسن!
دامار سنسن!
نه وار سنسن!

باخیرام
شَهَرین اللرینه،
باطیل اولان حایاتلاردا؛
هانسی گؤزه للیکلر یوخ اولاجاق؟؟!
ائولر،اؤلوم ایله ائوله نیبلر.

شَهَر،
بیر عؤموردور، اوروج توتور
اوباشدانسیز
ایفطارسیز...
باطیل کیمدیر؟قاتیل کیم؟!

YALQIZ AĞAC DOSTLUĞUNDA

Bəhrüz SƏDIQ

Gedişinin addım ızın
Dizin-dizin
Izləyirəm
Itgın düşmüş, sütül arzum,
Hei yolunu gözləyirəm...

Hansı yollar azmışı san?
Hansı yollar?!

Yol üstündə
Xəzan vurmüş
Yalqız ağac
Dustluğunda
durmuşam mən,

Qürxü doğan
Bu yollara
Buylanıram

Və kölgəmdə
Quylanıram.

یالقیز آغاج دوستلوغوندا

بهروز صدیق

گئدیشی نین آددیم ایزین
دیزین ـ دیزین
ایزله ییرم
اینگین دوشموش، سوتول آرزوم
هئی یولونو گؤزله ییرم...

هانسی یوللار آزمیشی سان؟
هانسی یوللار؟!

یول اوستونده
خزان وورموش
یالقیز آغاج
دوستلوغوندا
دورموشام من،

قورخو دوغان
بو یوللارا
بویلانیرام

و کؤلگَمده
قویلانیرام.

QATAR QAYITMAZ

Əli CƏVADPUR

nə özün gələrsən, nə də xəbrin,
yox səni aparan qatar, qayıtmaz.
yollar yadırğayar, yollar unudar,
yollar kürək üstə yatar, qatar qayıtmaz!

Gedər dayanmazkı, ilin qatarı,
Gedər bəy qatarı, gəlin qatarı,
kim deyir; qaytaraq gəlin qatarı,
gedər gözdən itər, qatar qayıtmaz.

getdin indən belə hər gələndə yaz,
solğun görünəcək çiçəklər bıraz,
sünbüllər saçını külək daramaz,
illər başa çatar, qatar qayıtmaz.

gedəndə doluydu bu boş qatarlar,
dünya qatar-qatar buşalar, dolar,
kimdən küsmək olar, incimək olar,
əlın hara yetər, qatar qayıtmaz?!

yağış yaddaşlardan ızlər unudur,
hərgün ömrümüzdən bir günü udur,
yalandan gözləyir « əli cəvadpur»
yox, səni aparan qatar, qayıtmaz.

قاتار قاییتماز

علی جوادپور

نه اؤزون گلرسن، نه‌ده خبرین،
یوخ سنی آپاران قاتار، قاییتماز.
یوللار یادیرغایار، یوللار اونودار،
یوللار کورک اوسته یاتار، قاتار قاییتماز!

گئدر دایانمازکی، ایلین قاتاری،
گئدر بِی قاتاری، گلین قاتاری،
کیم دئییر؛ قایتاراق گلین قاتاری،
گئدر گؤزدن ایتر، قاتار قاییتماز.

گئتدین ایندن بئله هر گلنده یاز،
سولغون گؤرونه‌جک چیچکلر بیرآز،
سونبوللر ساچینی کولک داراماز،
ایللر باشا چاتار، قاتار قاییتماز.

گئدنده دولویدو بو بوش قاتارلار،
دونیا قاتار ـ قاتار بوشالار، دولار،
کیمدن کوسمک اولار، اینجیمک اولار،
الین هارا یئتر، قاتار قاییتماز؟!

یاغیش یادداشلاردان ایزلر اونودور،
هرگون عؤمرومودن بیرگونو اودور،
یالاندان گؤزله‌ییر «علی جوادپور»
یوخ، سنی آپاران قاتار، قاییتماز.

BİR UŞAQLIQ OYUNUYDU O

Elvin NURİ

Ömrümüzdə iz qoyubdur silinməz,
Bir uşaqlıq oyunuydu o sevda.
Adı nəydi, xəyalı da görünməz,
Bir uşaqlıq oyunuydu o sevda.

Necə közdür, heç odu da qalmayıb,
İnadmıydı, inadı da qalmayıb,
Yaddaşımda heç adı da qalmayıb,
Bir uşaqlıq oyunuydu o sevda.

Qalan deyil o həmişə, bilmədik,
Necə getdik ilk görüşə, bilmədik,
Gizlən-qaç, ya yeddi şüşə, bilmədik,
Bir uşaqlıq oyunuydu o sevda.

Çox sevgini var-dövlətə satdılar,
Günəş kimi saraldılar, batdılar,
Sevgi deyib, başımızı qatdılar,
Bir uşaqlıq oyunuydu o sevda.

Bir dəlinin başındakı ağıldır,
Yeddi şüşə... Düzdük onu, dağıldı,
Bir röyaydı, bir yuxuydu, nağıldı,
Bir uşaqlıq oyunuydu o sevda.

Hərdən qəmli, çox zaman da şən oldu,
Qəlbimin ilk duyğuları cəm oldu,
Cığallığı eyləyəni sən oldun,
Bir uşaqlıq oyunuydu o sevda.

بیر اوشاقلیق اویونویدو او سئودا..."

ائلوین نوری

عؤمروموزده ایز قویوبدور سیلینمز،
بیر اوشاقلیق اویونویدو او سئودا.
آدی نه ایدی، خیالی دا گؤرونمز،
بیر اوشاقلیق اویونویدو او سئودا.

نئجه کؤزدور، هئچ اودو دا قالماییب،
عینادمی ایدی، عینادی دا قالماییب،
یادداشیمدا هئچ آدی دا قالماییب،
بیر اوشاقلیق اویونویدو او سئودا.

قالان دئییل او همیشه، بیلمه‌دیک،
نئجه گئتدیک ایلک گؤروشه، بیلمه‌دیک،
گیزلن-قاچ، یا یئددی شوشه، بیلمه‌دیک،
بیر اوشاقلیق اویونویدو او سئودا.

چوخ سئوگینی وار-دؤولته ساتدیلار،
گونش کیمی سارالدیلار، باتدیلار،
سئوگی دئییب، باشیمیزی قاتدیلار،
بیر اوشاقلیق اویونویدو او سئودا.

بیر دلینین باشینداکی عاغیلدیر،
یئددی شوشه... دوزدوک اونو، داغیلدی،
بیر رؤیایدی، بیر یوخویدو، ناغیلدی،
بیر اوشاقلیق اویونویدو او سئودا.

هردن غملی، چوخ زامان دا شن اولدو،
قلبیمین ایلک دویغولاری جمع اولدو،
جیغاللیغی ائیلیه‌نی سن اولدون،
بیر اوشاقلیق اویونویدو او سئودا.

SƏNSİZ YAŞAMAĞIN SİRRİNİ

Kənan AYDINOĞLU

Ömürdü keçibdi günlərim mənim,
Kədərlə, sevinclə dolu həm də şən.
Hüsnünə aşiqkən gözündə gördüm,
Qadına vurulub, sevilməyi mən.

Doğma Sumqayıta hər gün sübh çağı,
Üz tutub, yollanmaq güzarım idi.
O vaxtlar Nəriman Həsənzadəysə,
Sevib, oxuduğum yazarım idi.

Gənclik çağlarımdan kitab toplamaq,-
Şeirlər oxumaq vərdişim oldu.
Allaha qovuşmaq istəyən andan,
Ustadım Yunusum dərvişim oldu.

Əlli illik ömür bəs edər mənə,
Adlamaz yaşım da İnşAllah yüzü.
Səni görmək üçün gözəl dünyada,
Hər dəfə tapırdım bəhanə, düzü.

Səhvlərim də olub, robot deyiləm,
Ömür yollarında almışam ibrət.
Bezdim bu dünyada biganəlikdən,
Sənsiz yaşamağın sirrini öyrət

سنسیز یاشاماغین سیررینی اؤیرت

کنعان آیدین اوغلو

عؤموردو کئچیبدی گونلریم منیم،
کدرله، سئوینجله دولو هم ده شن.
حوسنونه عاشیقکن گؤزونده گؤردوم،
قادینا وورولوب، سئویلمگی من.

دوغما سومقاییتا هر گون صوبح چاغی،
اوز توتوب، یوللانماق گوذاریم ایدی.
او واختلار نریمان حسنزاده ایسه،
سئویب، اوخودوغوم یازاریم ایدی.

گنجلیک چاغلاریمدان کیتاب توپلاماق،-
شعیرلر اوخوماق وردیشیم اولدو.
آللاها قوووشماق ایسته‌ین آندان،
اوستادیم یونوسوم درویشیم اولدو.

اللی ایللیک عؤمور بس ائدر منه،
آدلاماز یاشیم دا ان شاءالله یوزو.
سنی گؤرمک اوچون گؤزل دونیادا،
هر دفعه تاپیردیم بهانه، دوزو.

سهولریم ده اولوب، روبوت دئییلم،
عؤمور یوللاریندا آلمیشام عیبرت.
بئزدیم بو دونیادا بیگانه‌لیکدن،
سنسیز یاشاماغین سیررینی اؤیرت

QƏLƏM YAZIR URƏK DEYƏN

Haci LOĞMAN MEHEMMEDOQLU

Qələm yazır, ürək deyən sözləri,
Elə nisgil var ürəkdə, yazılmır.
Nakam qalan eşqin acı həsrəti
Nə günaha, nə savaba yozülmur.

Məcnun sevdi, tutdu ahı aləmi,
Əsil eşqin aqibəti beləmi !?
Nə yazırsa bəxt yazanın qələmi,
Elə yazır pozulmur ki, pozulmur.

Sönən deyil nakam eşqin ocağı,
Qəm yuvası qəlbimizin otağı,
Ölənəcən məhəbbətin bulağı,
Sısqa axır, üzülmür ki, üzülmür.

Qorumaqçun adı, sanı, şərəfi,
Bəxtin vura, düz seçəsən hədəfi.
Dolaşmasın taleyinin kələfi,
Dolaşdısa, çözülmür ki, çözülmür.

Sən xoşbəxtsən, düşündünmü, bə Loğman?
Xam xəyaldan çolpa plov ye, Loğman.
Çox dedilər "səbrin olsun, a Loğman,
Səbr olsa da, dözülmür ki, dözülmür.

قلم یازیر اورک دئین سؤزلری

حاجی لغمان محمد اوقلو

قلم یازیر، اورک دئین سؤزلری،
ائله نیسگیل وار اورکده، یازیلمیر.
ناکام قالان عشقین آجی حسرتی
نه گوناها، نه ثاوابا یوزولمور.

مجنون سئودی، توتدو آهی عالمی،
اصیل عشقین عاقیبتی بئله‌می ! ؟
نه یازیرسا بخت یازانین قلمی،
ائله یازیر پوزولمور کی، پوزولمور.

سؤنن دئییل ناکام عشقین اوجاغی،
غم یوواسی قلبیمیزین اوتاغی،
اؤلنه جن محبتین بولاغی،
سیسقا آخیر، اوزولمور کی، اوزولمور.

قوروماقچون آدی، سانی، شرفی،
بختین ووران، دوز سئچه‌سن هدفی.
دولاشماسین طالعیینین کلفی،
دولاشدیسا، چؤزولمور کی، چؤزولمور.

سن خوشبختسن، دوشوندونمو، به لغمان؟
خام خیالدان چولپا پلوو یئ، لغمان.
چوخ دئدیلر "صبرین اولسون، آ لغمان،
صبر اولسا دا، دؤزولمور کی، دؤزولمور.

VƏTƏN

Elnur UĞUR ABDİYEV

Yadlar yoğurdu xəmrini,
Çörəyin güllədi,Vətən!
Qarabağda qış fəslidi,
Vaxt kiçik çilladi,Vətən!

Sinəndə düşmən ayağı,
Səni tapdalayır yağı.
Qoynun yadların oylağı,
Bu ruha şillədi,Vətən!

Xocalıda ruh kölgələr,
Qarda əriyər,səndələr.
Orda Allahsız bəndələr,
Odunu küllədi,Vətən!

Bir səs vermədik səsinə,
Çatmadıq son nəfəsinə.
Eşqin son mərtəbəsinə,
Sonuncu pillədi Vətən!

وطن

ائلنور اوغور عبداله اوف

یادلار یوغوردو خمرینی،
چؤرگین گول له‌دی،وطن!
قاراباغدا قیش فصلیدی،
واخت کیچیک چیلله‌دی،وطن!

سیننده دوشمن آیاغی،
سنی تاپدالایر یاغی.
قوینون یادلارین اویلاغی،
بو روحا شیلله‌دی،وطن!

خوجالیدا روح کؤلگه‌لر،
قاردا ایییر،سندلر.
اوردا آلله سیز بنده‌لر،
اودونو کول له‌دی،وطن!

بیر سس وئرمه‌دیک سسینه،
چاتمادیق سون نفسینه.
عشقین سون مرتبه‌سین،
سونونجو پیلله‌دی وطن!

BU SƏHƏRİN ŞEİRİ

Əbülfət MƏDƏTOĞLU

(Bir qadına və hamıya" silsiləsindən)

Mən bu yaz səhərini
Yuxu kimi hiss etdim...
Kirpiyimin ucunda -
Bir içimlik sis getdim...

Nə gerçəyi saxladım
Nə də yuxunu yozdum...
İçin - için ağladım -
Mən Orucumu pozdum...

Tənhalığın ovcunda -
Qəlb oldu sıxılan nar...
Bu səhərki ovsunda -
İnan ki, möcüzə var!..

Bir az yağış çilənir ...
Bir az da Günəş nuru...
Bu səhərdən çıxıram -
Bir az yaş , bir az quru...

... Mən bu yaz səhərini
Sənli anlardan saydım...
Ona görə tərifin -
Bütün dünyaya yaydım!..

بو سحرین شعیری

ابولفتح مدد اوغلو
(بیر قادینا و هامییا" سیلسیله سیندن)

من بو یاز سحرینی
یوخو کیمی حیس ائتدیم...
کیر پیگیمین اوجوندا -
بیر ایچیملیک سیس گئتدیم...

نه گئرچگی ساخلادیم
نه ده یوخونویوزدوم...
ایچین - ایچین آغلادیم -
من اوروجومو پوزدوم...

تنهالیغین اووجوندا -
قلب اولدو سیخیلان نار...
بوسحر کی اووسوندا -
اینان کی، مؤعجیزه وار!..

بیرازیاغیش چیله‌نیر ...
بیر آز دا گونش نورو...
بوسحردن چیخیرام -
بیر آز یاش ،بیراز قورو...

... من بو یازسحرینی
سنلی آنلاردان سایدیم...
اوناگؤرت عریفین -
بوتون دونیایا یایدیم!..

SƏNİ SEVMƏK ÜÇÜN

Gülgəz YAQUB

Yenidən doğulub körpə olaram,
Ağacın kökündə pöhrə olaram.
Qocalıb üzündə çohrə olaram,
Yetərki çiyninə çiynimə daya,
Səni sevmək üçün gəldim dünyaya.

Ot olub ayağın altda bitərəm,
Su olub gözündən axıb itərəm,
Sənin olmaq üçün məndən keçərəm,
Baxmakı qarşımda dayanıb qaya,
Səni sevmək üçün gəldim dünyaya.

Sevgim bir ox oldu qınağa gəldi,
Sevgimi sınadın, sınağa gəldi,
Qaranlıq umidim çırağa gəldi,
Baxma sən günəşə, baxma sən aya,
Səni sevmək üçün gəldim dünyaya.

Məhəbbət gozumdən xəbərin olar,
Sevgim ömür boyu çəpərin olar,
Güc verər gücünə təpərin olar,
Dönərəm qayadan axan hər çaya,
Səni sevmək üçün gəldim dünyaya.

Gülüş kimi dodağında qaçaram,
Bir xal olub o cohrəndə saçaram,
Çiçəklənib əllərində açaram,
Dönərəm əlində sapanda, yaya,
Səni sevmək üçün gəldim dünyaya.

سنی سئومک اوچون گلدیم دونیایا

گولگز یعقوب

یئنیدن دوغولوب کؤرپه اولارام،
آغاجین کؤکونده پؤهره اولارام.
قوجالیب اوزونده چوهره اولارام،
یئتر کی چیینینی چییینیمه دایا،
سنی سئومک اوچون گلدیم دونیایا.

اوت اولوب آیاغین آلتدا بیترم،
سو اولوب گؤزوندن آخیب ایترم،
سنین اولماق اوچون مندن کئچرم،
باخماکی قارشیمدا دایانیب قایا،
سنی سئومک اوچون گلدیم دونیایا.

سئوگیم بیر اوخ اولدو قیناغا گلدی،
سئوگیمی سینادین، سیناغا گلدی،
قارانلیق اومیدیم چیراغا گلدی،
باخما سن گونش، باخما سن آیا،
سنی سئومک اوچون گلدیم دونیایا.

محبت گوزومدن خبرین اولار،
سئوگیم عؤمور بویو چیرین اولار،
گوج وئرر گوجونه تیرین اولار،
دؤنرم قایادان آخان هر چایا،
سنی سئومک اوچون گلدیم دونیایا.

گولوش کیمی دوداغیندا قاچارام،
بیر خال اولوب او جوهرنده ساچارام،
چیچکله‌نیب اللرینده آچارام،
دؤنرم الینده ساپاندا، یایا،
سنی سئومک اوچون گلدیم دونیایا.

TƏCNİS

Təcnis QURBAN

Qəm çəkənin gözlərində,
Yaşda yanar yaşda yanar.
Qəm yerini sevinc tutsa,
Yaşda yanar yaşda yanar.

Odun közün üstə gələ,
Odun közün üstə gələ,
Odun közün üstə gələ,
Yaşda yanar yaşda yanar.

Qurban bir gün ağla gedər,
Qurban bir gün ağla gedər,
Qurban bir gün ağla gedər,
Yaşda yanar yaşda yanar.

تجنیس

تجنیس قوربان

قم چکه‌نین گؤزلرینده،
یاش دایانار یاش دایانار.
غم یئرینی سئوینج توتسا،
یاش دایانار یاش دایانار.

اودون کؤزون اوسته گله،
اودون کؤزون اوسته گله،
اودون کؤزون اوسته گله،
یاشدا یانار یاشدا یانار.

قوربان بیر گون آغلا گئدر،
قوربان بیر گون آغلا گئدر،
قوربان بیر گون آغلا گئدر،
یاش دایانار یاش دایانار.

ÖZ TƏRƏZİMDƏ

Ayaz ARABAÇI

Mən əyri işlərdən uzaq adamam,
Durub dayanmışam düz tərəzimdə.
Heç kimi heç zaman sınamamışam,
Çörək tərəzimdə,duz tərəzimdə..

Çox da ki,taleyim qan-bağır gəlib.
Neyimdən hamıya çal-çağır gəlib..
Çəkdiyim bir misqal haqq ağır gəlib,
Hər zaman ürəyi buz tərəzimdə.

Yorğunam yuxumun əvvəli kimi,
Nə Əli kmiyəm,nə Vəli kimi..
Qoca Mendeleyev cədvəli kimi,
Hamı yerbəyerdi göz tərəzimdə..

Qaçıram özümü haqlamaq üçün,
Min dənə səbəb var laxlamaq üçün,
Ancaq mənliyimi saxlamaq üçün,
Özümü çəkirəm öz tərəzimdə.

Üstümdə haqqı var ötən hər ilin,
Ömrümü kişitək yaşadım bilin..
Bütün dəftərlərdən adımı silin,
Əyrilik görsəniz söz tərəzimdə..

چؤرک ترزیمد،دوز ترزیمده

آیاز آراباچی

من اَیری ایشلردن اوزاق آدامام،
دوروب دایانمیشام دوز ترزیمده.
هئچ کیمی هئچ زامان سینامامیشام،
چؤرک ترزیمد،دوز ترزیمده..

چوخ دا کی،طالعییم قان-باغیر گلیب.
نئییمدن هامییا چال-چاغیر گلیب..
چکدیگیم بیر میثقال حاق آغیر گلیب،
هر زامان اورگی بوز ترزیمده.

یورغونام یوخومون اوّلی کیمی،
نه علی کمییم،نه ولی کیمی..
قوجا مندلئیئو جدوه‌لی کیمی،
هامی یئربه یئردی گؤز ترزیمده..

قاچیرام اؤزومو حاقلاماق اوچون،
مین دنه سبب وار لاخلاماق اوچون،
آنجاق منلیگیمی ساخلاماق اوچون،
اؤزومو چکیرم اؤز ترزیمده.

اوستومده حاقی وار اؤتن هر ایلین،
عؤمرومو کیشی تک یاشادیم بیلین..
بوتون دفترلردن آدیمی سیلین،
آیریلیک گؤرسنیز سؤز ترزیمده..

KAŞ MƏNİ BİR HƏZİN AĞLAYAN

Tofiq YUSİF

Səpə üz-gözümə ağılarını,
Kaş məni bir həzin ağlayan ola!
Duya ürəyimin ağrılarını,
Kaş məni bir həzin ağlyan ola!

Dağıla başımdan bu duman, bu çən,
Bir görəm ömürdür, ya nədir ötən?!
Gözüm görə-görə, elə sağ ikən,
Kaş məni bir həzin ağlayan ola!

Yuya göz yaşıyla ağrı-acımı,
Qaytara yerinə qara saçımı,
Çağırın anamı, qardaş-bacımı...
Kaş məni bir həzin ağlayan ola!

Taleyim tufandan heç ayazımır,
Bilmirəm, illərin qışı, yazımı?
Qıymayın ağlasın çiçək qızımı,
Kaş məni bir həzin ağlayan ola!

Səsim səda sala yalçın qayada,
Yatmış taleyimi Tanrı oyada,
Vaxtsız ölənlərim geri qayıda,
Kaş məni bir həzin ağlayan ola!

Ömrün son çağına sıxılmış yayam,
Təpədən-dırnağa dərdəm, qovğayam,
Onsuz da bir ovuc torpağa tayam,
Kaş məni bir həzin ağlayan ola!

Günün qara gəldi, ay Tofiq Yusif,
Üstündən illərin tufanı əsib,
Ağlar ömür sürmək səbrimi kəsib,
Kaş məni bir həzin ağlayan ola!

کاش منی بیر حزین آغلایان اولا

توفیق یوسف

سپه اوز-گؤزومه عاغیلارینی،
کاش منی بیر حزین آغلایان اولا!
دویا اورگیمین آغریلارینی،
کاش منی بیر حزین آغلیان اولا!

داغیلا باشیمدان بو دومان، بو چن،
بیر گؤرم عؤموردور، یا نه دیر اؤتن؟!
گؤزوم گؤره-گؤر، ائله ساغ ایکن،
کاش منی بیر حزین آغلایان اولا!

یویا گؤز یاشییلا آغری-آجیمی،
قایتارا یئرینه قارا ساچیمی،
چاغیرین آنامی، قارداش-باجیمی...
کاش منی بیر حزین آغلایان اولا!

طالعییم توفاندان هئچ آیازیمیر،
بیلمیرم، ایللرین قیشی، یازیمی؟
قییمایین آغلاسین چیچک قیزیمی،
کاش منی بیر حزین آغلایان اولا!

سسیم صدا سالا یالچین قایادا،
یاتمیش طالعییمی تانری اویادا،
واختسیز اؤلنلریم گئری قاییدا،
کاش منی بیر حزین آغلایان اولا!

عؤمرون سون چاغینا سیخیلمیش یایام،
تپه‌دن-دیرناغا دردم، قووغایام،
اونسوز دا بیر اووج تورپاغا تایام،
کاش منی بیر حزین آغلایان اولا!

گونون قارا گلدی، آی توفیق یوسیف،
اوستوندن ایللرین توفانی اسیب،
آغلار عؤمور سورمک صبریمی کسیب،
کاش منی بیر حزین آغلایان اولا!

SAATIN QILINCI

Şəhla NORUZİ

Sıcaq bir günüydü saat altıda,
Bir bulut köçmüşdü gözlərimizə.
Yağmurlar yağırdi sözlər küsürdü,
Bir sanci enirdi dizlərimizə.

Zamansız gedişin dağıdır məni,
Dalıncan gözlərim düşüb sürünür.
Ulduz tək göylərdən qayıb düşürəm,
Göz önün görmürəm, çəndən bürünür.

Beş dəyqə sovuşub altını zaman,
Saniyə saatla yarışa durur.
Fırlanır başıma bütün kayinat,
Düşürəm bu düşüş bir dəyqə sürür,

Yaranır bir xəyal sənlə əl ələ,
Bir gecə sahilin qırağındayam.
İstidir əllərin, baxışın dəli,
Dənizin içinə düşmüş bir ayam.

Yapraqlar sillələir səsləyir oyan,
Əllərim soyuyur xəyallar uçur.
Xəzanın əlindən sevgilər bitir,
Bir qışın soyuğu içimə köçür.

Altını on dəyqə zamanda ötüb,
İçimdə çəkirəm, hislərim sürgün.
Qaçmaq istəyirəm ögey şəhərdən,
Saatın qılınci üstümdə bu gün.

ساعاتین قیلینجی

شهلا نوروزی

سیجاق بیر گونویدو ساعات آلتی دا،
بیر بولوت کؤچموشدو گؤزلریمیزه.
یاغمورلار یاغیردی ، سؤزلر کوسوردو،
بیر سانجی ائتیردی دیزلریمیزه.

زامانسیز گئدیشین داغیدیر منی،
دالینجان گؤزلریم دوشوب سورونور.
اولدوز تک گؤیلردن غایب دوشورم،
گؤز اؤنون گؤرمورم ، چن ده بورونور.

بئش دیقه سووشوب آلتی نی زامان ،
ثانیه ساعاتلا یاریشا دورور!
فیرلانیر باشیما بوتون کائنات،
دوشورم بو دوشوش بیر دیقه سورور.

یارانیر بیرخیال سنله ال اله،
بیر گئجه ساحیلین قیراغین دایام.
ایستی دی اللرین ، باخیشین دلی،
دنیزین ایچینه دوشموش بیر آیام.

یاپراقلار سیله لیر، سسله ییر اویان،
اللریم سویویور، خیال لار اوچور.
خزانین الیندن سئوگی لر بیتیر،
بیر قیشین سویوغو ایچیمه کؤچور.

آلتینی اون دیقه زاماندا اؤتوب،
ایچیمیده چکیرم ، حیسلریم سورگون.
قاچماق ایسته ییرم اؤگئی شهردن،
ساعاتین قیلینجی اوستومده بوگون.

ÜZMƏK ÇƏTINDIR

Şöhlət ƏFŞAR

Dənizdə üzməyə nə var ki, lələ,
İnsan dənizində üzmək çətindir.
Bu dəniz doludur şərəfsiz ilə,
Gədanın forsuna dözmək çətindir.

İnsan dənizinin bəlaları çox,
Baxırsan hər yanda əfi sürünür.
Keçilməz sualtı qayaları çox,
Düşüncə güzgümdə hər şey görünür.

Haqsızlar dünyanı dar eyləyərlər,
Bir nicat körfəzi qəhətə çıxar.
Səni el içində xar eyləyərlər,
Paxıllar, nadanlar evini yıxar.

Ədalət çarmıxa çəkilib burda,
Hakimlik eyləyir nəfsin qulları.
Quzu tapşırılıb yalquzaq qurda,
Bağlıdır aqilin, mərdin qolları.

Dənizdə üzməyə nə var ki, lələ,
İnsan dənizində üzmək çətindir.
Bu dəniz doludur şərəfsiz ilə,
Gədanın forsuna dözmək çətindir.

اوزمک چتیندیر

شؤهلت افشار

دنیزده اوزمه یه نه وار کی، له له،
اینسان دنیزینده اوزمک چتیندیر.
بو دنیز دولودور شرفسیز ایله،
گدانین فورسونا دؤزمک چتیندیر.

اینسان دنیزینین بالالاری چوخ،
باخیرسان هر یاندا افعی سورونور.
کئچیلمز سو آلتی قایالاری چوخ،
دوشونجه گوزگومده هر شئی گؤرونور.

حاقسیزلار دونیانی دار ائیله یرلر،
بیر نیجات کؤرفزی قحطه چیخار.
سنی ائل ایچینده خار ائیله یرلر،
پاخیللار، نادانلار ائوینی ییخار.

عدالت چارمیخا چکیلیب بوردا،
حاکیملیک ائیله ییر نفسین قوللاری.
قوزو تاپشیریلیب یالقوزاق قوردا،
باغلیدیر عاقیلین، مردین قوللاری.

دنیزده اوزمه یه نه وار کی، له له،
اینسان دنیزینده اوزمک چتیندیر.
بو دنیز دولودور شرفسیز ایله،
گدانین فورسونا دؤزمک چتیندیر.

USTAD YƏHYA ŞEYDA

Səxavət İZZƏTİ

Yəhya Şeyda 1924-cü ilin may ayının 10-da şərqin ən qədim şəhərlərindən olan Təbriz şəhərində anadan olmuşdur. Onun atası Səttarxan hərəkatının iştirakçılarından, Təbrizin məşrutə mücahidlərindən olan "Yüzbaşı" ləqəbli Həsən Çərəndabidir. Şeyda, Firdovsi mədrəsəsinin ədəbiyyat bölümünü bitirmiş, fars və ərəb dillərini mükəmməl şəkildə mənimsəmiş, Ədəbi fəaliyyətə gənclik dövründən başlamışdır (1940). Əli Fitrət, Cəfər Xəndan və Mövlana Yetim kimi şairlərdən ədəbiyyat dərsləri almış, mətbuatla çıxış etmişdir. 1948-51-ci illərdə Tehranda təhsilini davam etdirmiş, həmin müddətdə müxtəlif ədəbi məclislərin toplantılarına qatılmışdır. Tehranda təhsilini başa vurduqdan sonra Təbrizə dönmüş, burada jurnalist kimi mətbuatda fəaliyyət göstərmiş, eyni zamanda ədəbi məclislərdə fəal iştirak etmiş, Səhənd, Həbib Sahər, Həsən Qazı, Əhməd Tərcanizadə, Vaiz Çərəndabi, Ədib Tusi, Mənuçöhr Mürtəzavi, Ustad Şəhriyar və b. kimi şairlərlə dostlaşmışdır. Pəhləvi rejimi dövründə siyasi səbəblər üzündən daim təqib olunmuş, dəfələrlə həbs edilmişdir[1]. Şeyda türkcə və farsca şeirlər yazmışdır. Onlarca kitabın müəllifi və tərtibçisidir. Ayrı-ayrı şeir kitablarından başqa, romanları və ədəbiyyata dair araşdırmaları çap olunmuşdur.

Yəhya Şeyda 2011-ci il oktyabrın 21-də Təbrizdə vəfat etmişdir

Yəhya Şeydanın ədəbi fəaliyyəti çox güclü və uzun muddətli olmüş.1947 inci ildən mətbuata gələn ustad şeyda uzun illər Təbrizdə çıxan "Məhd-e azadi" ("Azadlıq beşiyi") qəzeti redaksiyasında şöbə müdiri və Azərbaycan dilində buraxılan səhifələrin redaktoru idi.iran türk yazar və şairlərinin içində çox az adam tapılarki ilk təcrübəsini bu qazetin türkcə səhifələriylə başlamasın.

Şeyda onlarca şairin şeir dəftərlərinə önsöz yazmış, şeirlərini bir dil sərrafı tək araşdırmış, incələmiş və yol göstərmişdir. Heç kim Şeyda qədər mu'asir şeirimizlə tanış deyil. Şaiirlərimizin şeir dəftərləri ustad Şeydanın önsözlərilə bəzənir. Onün uç cildlik «ədəbyat ocağı» kitabının nəşri iran türk basımınada bir müsbət ədəbi cərəyan demək çox yerli olar. çağdaş ədəbiyyatımızda önəmli və dəyərli bir əsərdir. Böyük ədib, bu əsəri hazırlamağa illər boyü zəhmət çəkib və yuzlərcə çağdaş şairlərimizlə əlaqə bağlayıb, şeirlərini ələ gətirib, və uç cildlik kitabda toplayıbdır. "Ədəbiyyat ocağı"nın I cildi 1985, II cildi 1987, III cildi isə 2002-ci ildə Təbrizdə işıq üzü görmüşdür.

Mərhum ustad yəhya şeyda bir çox şairlərimizin əsərlərini toplayıb elmi üslüblara dayanaraq nəşrə çatdirmişdir o cümlədən:

əli nəzminin şeirləri "Sijimqulu" , Mirzə Əli Möcüzün "Əsərləri", ustad Məhəmmədhüseyn Şəhriyarın "türkcə şeirlər"ı,təbrizli həddadin "odlu sözlər",mirməhdi etimadın"gəlinlər bəzəgi","odlar vətəni" şeir toplusu, "ehsaslı qəzəllər",molla vəli vidadını "divani", "ehsaslı bayatılar", və farsca – türkcə bir çox əsərlər nəşr olunubdur. Çəşidli dərgi və qəzetələrdə yazı və şeirləri dərc edilibdir. Ustadın vəfatindan sonra iki cilid şeir toplusu biri türkcə (sarı köynək) biridə farsca yayıldı.

Mərhum ustad şeiyda son nəfəsinə qədər ədəbi toplantılardan çəkilmədi o həmişə belə toplantilara qatılaraq ədəbi gəncliyimizə türk şeir və mədəniyətinin nə olduğunu anlatmağa çalışdı. Biz nəsil ədəbiyat aşiqlarinin boynunda danılmaz haqqı var mərhum ustad yəhya şeidanin.

Ustad şeyda şeirimizin çoxlu qaliblərində gözəl əsərlər yaratmışdır (qəzəl,qəsidə, tərkib bənd, qoşma) kimi şeir qaliblərini artıq sevirdi. şeirlərinin mayasını vətən, millət, dil və azadlıq təmaları yaradırdı onun sevdigi şeirdə bir ğayə olmalıydı deyərdi şeirin içi olmalıdır, beyni olmlalıdır.

Bütün həyatı və fəaliyyəti dövründə ürəyi Azərbaycan eşqi ilə çırpınan şairin yaradıcılığına vətən və millət sevgisi hakim kəsilmişdir. Şairin gənc yaşlarında yazdığı "Azərbaycanım" şeiri buna gözəl bir örnəkdir:

Ey sevgili yurdum, yaşayır səndə min amal,
Sənsiz açа bilməz bu xəyalım quşu heç bal.
Ey şanlı vətən, şairi bu gənc çağında,
Sən saxlamısan isti məhəbbət qucağında.
Mən fəxr edirəm sənlə ki, doğma vətənimsən,
Bağım, çiçəyim, lalәli gülgün çəmənimsən.
Sənsiz yaşamaq xeyli müsibətdi cahanda,
Sən saxlamısan canımı eşqinlə amanda.
Eşqin mənə aləmdə böyük şanu-cəlaldır,
Sənsiz işim hər yanda bütün ahu-məlaldır.
Şeyda sənin eşqinlə belə tazə cavandır,
Fəxr ilə deyir: "Torpağım Azərbaycandır!

اوستاد یحی شِیدا

سخاوت عزتی

یحی شِیدا 1924-جو ایلین مای آیینین 10-دا شرقین ان قدیم شهرلریندن اولان تبریز شهرینده آنادان اولموشدور. اونون آتاسی ستارخان حرکاتینین ایشتیراکچیلاریندان، تبریزین مشروطه مجاهیدلریندن اولان "یوزباشی" لقبلی حسن چرندابیدیر. شِیدا، فردوسی مدرسه‌سینین ادبیات بؤلومونو بیتیرمیش، فارس و عرب دیللرینی موکمل شکیلده منیمسه‌میش، ادبی فعالیته گنجلیک دؤوروندن باشلامیشدیر (1940). علی فیطرت، جعفر خندان و مؤولانا یئتیم کیمی شاعیرلردن ادبیات درسلری آلمیش، مطبوعاتلا چیخیش ائتمیشدیر. 1948-51-جی ایللرده تهراندا تحصیلینی داوام ائتدیرمیش، همین مدتده مختلیف ادبی مجلیسلرین توپلانتیلارینا قاتیلمیشدیر. تهراندا تحصیلینی باشا وورودوقدان سونرا تبریزه دؤنموش، بورادا ژورنالیست کیمی مطبوعاتدا فعالیت گؤسترمیش، عئینی زاماندا ادبی مجلیسلرده فعال ایشتیراک ائتمیش، سهند، حبیب ساهر، حسن قاضی، احمد ترجانیزاد، واعظ چرندابی، ادیب طوسی، منوچهر مرتضوی، اوستاد شهریار و ب. کیمی شاعیرلرله دوستلاشمیشدیر. پهلوی رئژیمی دؤورونده سیاسی سببلر اوزوندن دایم تقیب اولونموش، دفعه لرله حبس ائدیلمیشدیر. شِیدا تورکجه و فارسجا شعیرلر یازمیشدیر. اونلارجا کیتابین مؤلیفی و ترتیبچیسیدیر. آیری-آیری شعیر کیتابلاریندان باشقا، رومانلاری و ادبیاتا دایر آراشدیرمالاری چاپ اولونموشدور.

یحی شِیدا 2011-جی ایل اوکتیابرین 21-ده تبریزده وفات ائتمیشدیر

یحی شِیدانین ادبی فعالیتی چوخ گوجلو و اوزون مدّتلی اولموش. 1947 اینجی ایلدن مطبوعاتا گلن اوستاد شِیدا اوزون ایللر تبریزده چیخان "مهد آزادی" ("آزادلیق بئشیگی") قزئتی رئداکسییاسیندا شعبه مُدیری و آذربایجان دیلینده بوراخیلان صحیفه لرین رئداکتورو ایدی. ایران تورک یازار و شاعیرلرینین ایچینده چوخ آز آدام تاپیلار کی ایلک تجروبه‌سینی بو قازئتین تورکجه صحیفه لرییله باشلاماسین.

شِیدا اونلارجا شاعیرین شعر دفترلرینه اؤن سؤز یازمیش، شعرلرینی بیر دیل صرافی تک آراشدیرمیش، اینجله‌میش و یول گؤسترمیشدیر. هئچ کیم شیدا قدر معاصیر شعریمیزله تانیش دئییل. شاعرلریمیزین شعر دفترلری اوستاد شِیدانین اؤنسؤزلریله بزنیر.

اونون اوچ جیلدلیک «ادبیات اوجاغی» کیتابینین نشری ایران تورک باسیمیندا بیر مثبت ادبی جریان دئمک چوخ یئرلی اولار چاغداش ادبیاتیمیزدا اؤنملی و دیرلی بیر اثردیر. بؤیوک ادیب، بو اثری حاضیرلاماغا ایللر بویو زحمت چکیب و یوزلرجه چاغداش شاعیرلریمیزله علاقه باغلاییب، شعرلرینی اله گتیریب، و اوچ جیلدلیک کیتابدا توپلاییبدیر. "ادبیات اوجاغی"نین بیر جیلدی 1985، ایکی جیلدی 1987، اوچ جیلدی ایسه 2002-جی ایلده تبریزده ایشیق اوزو گؤرموشدور.

مرحوم اوستاد یحی شِیدا بیر چوخ شاعیرلریمیزین اثرلرینی توپلاییب علمی اوسلوبلارا دایاناراق نشره چاتدیرمیشدیر او جومله‌دن: علی نظمینین شعرلری "سیژیم قولو"،میرزه علی معجوزون "اثرلری" ،اوستاد محمدحسین شهریارین "تورکجه شعرلر"ی،تبریزلی حدادین "اودلو سؤزلر"،میرمهدی اعتمادین "گلینلر بزگی" ، "اودلار وطنی" شعر توپلوسو، "ائحساسلی غزللر"،موللا ولی ویدادینی "دیوانی" ،"ائحساسلی بایاتیلار" ،و فارسجا – تورکجه بیر چوخ اثرلر نشراولونوبدور. چشیدلی درگی و قزئته‌لرده یازی و شعرلری درج ائدیلیبدیر. اوستادین وفاتیندان سونرا ایکی جیلید شعر توپلوسو بیری تورکجه (ساری کؤینک) بیریده فارسجا یاییلدی.

مرحوم اوستاد شیدا سون نفسینه قدر ادبی توپلانتیلاردان چکیلمه‌دی او همیشه بئله توپلانتیلارا قاتیلاراق ادبی گنجلیگیمیزه تورک شعر و مدنییتینین نه اولدوغونو آنلاتماغا چالیشدی. بیز نسیل ادبییات عاشیقلارینین بوینوندا دانیلماز حاقی وار مرحوم اوستاد یحی شِیدانین.

اوستاد شِیدا شعریمیزین چوخلو قالیبلرینده گؤزل اثرلر یاراتمیشدیر (غزل،قصیده، ترکیب بند، قوشما) کیمی شعر قالیبلرینی آرتیق سئویردی.

شعرلرینین مایاسینی وطن، میلت، دیل و آزادلیق تمالاری یارادیردی اونون سئودیگی شعرده بیر غایه اولمالییدی دئیردی شعرین ایچی اولمالیدیر، بئینی اولملالیدیر.

بوتون حیاتی و فعالیتی دؤورونده اورگی آذربایجان عشقی ایله چیرپینان شاعیرین یارادیجیلیغینا وطن و میلت سئوگیسی حاکیم کسیلمیشدیر. شاعیرین گنج یاشلاریندا یازدیغی "آذربایجانیم" شعری بونا گؤزل بیر اؤرنکدیر:

ائی سئوگیلی یوردوم، یاشاییر سنده مین آمال،
سنسیز آچا بیلمز بو خیالیم قوشو هئچ بال.
ائی شانلی وطن، شاعیری بو گنج چاغیندا،
سن ساخلامیسان ایستی محبت قوجاغیندا.
من فخر ائدیرم سنله کی، دوغما وطنیمسن،
باغیم، چیچگیم، لاله‌لی گولگون چمنیمسن.
سنسیز یاشاماق خئیلی موصیبتدی جاهاندا،
سن ساخلامیسان جانیمی عشقینله آماندا.
عشقین منه عالمده بؤیوک شان وجلالدیر،
سنسیز ایشیم هر یاندا بوتون آه و ملالدیر.
شِیدا سنین عشقینله بئله تازه جاواندیر،
فخر ایله دئییر: "تورپاغیم آذربایجاندیر!

ADAM

Şəmsəddin HƏKƏRİ

(Milli Daşqınla növbəti dərdləşməmiz)

Zaman məni xıncımladı,
Ovulmadım, daşam adam.
Araz axdı Kür bəxtimə,
Qurumadım, yaşam adam.

Nəsimi deyib soydular,
Qanımdan içib doydular.
Dərimi yana qoydular,
Əyilmiyən başam, adam.

Kim yandırdı, kimə yandım?,
Oda döndü əhdim, andım.
Yaranışdan yarımadım,
Bax, əlləri boşam adam.

Bənd vurdular bərəm üstə,
Tor qurdular dəstə-dəstə.
Kərəmiyəm Kərəm üstə,
Çətin birdə coşam adam.

Şəmsddinəm duydu ellər,
Ömür getdi illər- illər.
Qanmıyanlar dağ dedilər,
Az qalıram aşam adam.

آدام

شمس الدّین هکری

(میللی داشقینلا نؤوبتی دردلشمه‌میز)

زامان منی خینجیملادی،
اووولمادیم، داشام آدام.
آراز آخدی کور بختیمه،
قورومادیم، یاشام آدام.

نسیمی دئییب سویدولار،
قانیمدان ایچیب دویدولار.
دریمی یانا قویدولار،
اَییلمیَین باشام، آدام.

کیم یاندیردی، کیمه یاندیم؟،
اودا دؤندو عهدیم، آندیم.
یارانیشدان یاریمادیم،
باخ، اللری بوشام آدام.

بند ووردولار برم اوسته،
تور قوردولار دسته-دسته.
کرمی یم کرم اوسته،
چتین بیرده جوشام آدام.

شمسددینم دویدو ائللر،
عؤمور گئتدی ایللر - ایللر.
قانمییانلار داغ دئدیلر،
آز قالیرام آشام آدام.

ADAM

Milli DAŞQIN

Yağış tökdü, yağmur tutdu,
Qurumadım, yaşam adam.
Bahar mənə yaxın düşməz,
Yaranışdan qışam adam.

Fərəh hissim düşdü qaçaq,
Qəm daşıdım qucaq- qucaq.
Nadanlarla qanlı- pıçaq,
Ariflərlə xoşam adam.

Güc eyləyir ruha bədən,
" Bu həsrətdi məni düşən".
Bir yar ola, birdə Vətən,
Elə şeir qoşam, adam.

Çatam başa, yol qısala,
Vaxt şairi yola sala.
Tamarzıyam bir vüsala,
Yüz həsrətə tuşam, adam.

Qürbət eldə arım getdi,
Daşqın, bütün varım getdi.
Atam getdi, yarım getdi,
Bir qanadsız quşam adam.

آدام

میللی داشقین

یاغیش تؤکدو، یاغمور توتدو،
قوروماديم، یاشام آدام.
باهار منه یاخین دوشمز،
یارانیشدان قیشام آدام.

فرح حیس ایم دوشدو قاچاق،
غم داشیدیم قوجاق - قوجاق.
نادانلارلا قانلی - پیچاق،
عاریفلرله خوشام آدام.

گوج ائیله‌ییر روحا بدن،
" بو حسرتدی منی دوشن".
بیر یار اولا، بیرده وطن،
ائله شعیر قوشام، آدام.

چاتام باشا، یول قیسالا،
واخت شاعیری یولا سالا.
تامارزییام بیر ووصالا،
یوز حسرته توشام، آدام.

قوربت ائلده عاریم گئتدی،
داشقین، بوتون واریم گئتدی.
آتام گئتدی، یاریم گئتدی،
بیر قانادسیز قوشام آدام.

ASIN

Naibe YUSUBLU

Nə yaman bozarıb dünyanın rəngi,
Dəyişib zamanın ritmi, ahəngi,
Ayıltmır dünyanı intihar zəngi,
Məni bu zənglərin dilindən asın.

Pozulub növrağı çölün, çəmənin
Dəyişib səsası dağın, dərənin,
Elindən gileyli ağ yasəmənin
Məni qan qoxulu telindən asın.

Sözdə duyulmayır cəngi nəfəsi,
Yuxuda dünyanın qəmli qissəsi,
Ünvanı dəyişib ölüm həvəsi,
Məni tərs ünvanlı ölümdən asın.

Yürüyür üstümə dəstəbədəstə
Zənglərdən ucalan naləli bəstə,
Fidanlar can verir qanlı qəfəsdə,
Məni kül eləyir - külümdən asın.

آسین

نایبه یوسوبلو

نه یامان بوزاریب دونیانین رنگی،
دییشیب زامانین ریتمی، آهنگی،
آییلتمیر دونیانی اینتیحار زنگی،
منی بو زنگلرین دیلیندن آسین.

پوزولوب نؤوراغی چؤلون، چمنین
دَییشیب صداسی داغین، دره‌نین،
ائلیندن گیلئیلی آغ یاسمنین
منی قان قوخولو تئلیندن آسین.

سؤزده دویولمایير جنگی نفسی،
یوخودا دونیانین قملی قیصّه‌سی،
عونوانی دییشیب اؤلوم هوه‌سی،
منی ترس عونوانلی اؤلومدن آسین.

یئریير اوستومه دسته به‌دسته،
زنگلردن اوجالان ناله‌لی بسته،
فیدانلار جان وئریر قانلی قفسده،
منی کول ائله‌ییر - کولومدن آسین.

SENSIZ OLUNCA

Karacakız EMI ÖZTÜRK

Aşkın,kollarımda sanki buz gibi,
Sevgin gözlerimde ince toz gibi,
Sineme saplanan acı söz gibi,
Savrulup dururum, sensiz olunca.

Kanadım kırılır,tutmaz hiç kolum,
Bir anda kesilir, hüzünle yolum,
Acıyı sarmalar, sen kokan gülüm,
Savrulup dururum, sensiz olunca.

Dilime yüklenir, aşkın tüm yükü,
Kurumaya başlar, goncanın kökü,
Peş peşe doldurur, o zaman saki,
Savrulup dururum, sensiz olunca.

Gözümden süzülen, kanlı yaş olur,
Bağrıma bastığım, birden taş olur,
Sanma ki gidişim, çok yavaş olur,
Savrulup dururum, sensiz olunca.

Hasretlikler gelip girse araya,
Kimse merhem olmaz, bende yaraya.
Kuru yaprak gibi, ordan oraya,
Savrulup dururum, sensiz olunca.

سنسیز اولونجا

قاراجاقیز امی اؤزتورک

عشقین،قوللاریمدا سانکی بوز کیمی،
سئوگین گؤزلریمده اینجه توز کیمی،
سینه مه ساپلاتان آجی سؤز کیمی،
ساورولوب دورورام، سنسیز اولونجا.

قانادیم قیریلیر،توتماز هیچ قولوم،
یئر آندا کسیلیر، حوزونله یولوم،
آجییی سارمالار، سن قوخان گولوم،
ساورولوب دورورام، سنسیز اولونجا.

دیلیمه یوکلنیر، عشقین توم یوکو،
قوروماغا باشلار، غونچانین کؤکو،
پئش پئشه دولدورور، او زامان ساکی،
ساورولوب دورورام، سنسیز اولونجا.

گؤزومدن سوزولن، قانلی یاش اولور،
باغریما باستیغیم، بیردن داش اولور،
سانما کی گئدیشیم، چوخ یاواش اولور،
ساورولوب دورورام، سنسیز اولونجا.

حسرتلیکلر گلیب گیرسه آرایا،
کیمسه مرهم اولماز، منده یارایا.
قورو یاپراق کیمی، اوردان اورایا،
ساورولوب دورورام، سنسیز اولونجا.

YENİ

Elshan AZIM

Köksümdə köhlənmi qaçır,
Ötür çaparaq səsləri.
Ürəyimin çırpımında-
Ölümün ayaq səsləri.

"Yıx bu ömrü, devir"- deyir,
"Altın üstə çevir" - deyir,
Küləklərin çevirdiyi-
Yazılmış varaq səsləri.

Vaxta qəfil süngü dəyir,
Gözə toran rəngi dəyir.
Qulağımda cingildəyir,
Qazılan torpaq səsləri.

Gözümü uyutmur daha,
Hirsimi soyutmur daha,
Dərdimi ovutmur daha,
Nə su, nə yarpaq səsləri.

Dinək sükut dilləriylə,
Əsək huzur yelləriylə,
Üstümüzdən əlləriylə-
Toz kimi çırpaq səsləri.

یئنی

ائلشن عظیم

کؤکسومده کؤهلنمی قاچیر،
اؤتور چاپاراق سسلری.
اورگیمین چیرپیمیندا-
اؤلومون آیاق سسلری.

"ییخ بو عؤمرو، دئویر" - دئییر،
"آلتین اوسته چئویر" - دئییر،
کولکلرین چئویردیگی-
یازیلمیش واراق سسلری.

واختا قفیل سونگو دییر،
گؤزه توران رنگی دییر.
قولاغیمدا جینگیلده‌ییر،
قازیلان تورپاق سسلری.

گؤزومو اویوتمور داها،
حیرصیمی سویوتمور داها،
دردیمی اووتمور داها،
نه سو، نه یارپاق سسلری.

دینک سوکوت دیللرییله،
اسک حضور یئللرییله،
اوستوموزدن اللرییله-
توز کیمی چیرپاق سسلری.

KIŞİLƏR ALDANIR GÖZ ...

Yusdf NƏĞMƏKAR

Məni göz yaşınla çaşdırma belə,
Kişilər aldanır göz yaşlanna.
Ağlaya-ağlaya söz demə bir də,
Yaraşmaz o titrək söz yaşlarına—
Kişilər aldanır göz yaşlarına.

Ağla, bu dərdlərin yüzünü ağla,
Amma doğru-dürüst özünü ağla,
Madam ağlayırsan, düzünü ağla
Qoy mən də inanım düz yaşlarına—
Kişilər aldanır göz yaşlarına.

Gürşadlar dağları bürüyən kimi,
Sellər qayaları kürüyən kimi,
Uşaq oyuncağa kiriyən kimi,
Uyusun bu dərə, düz yaşlarına—
Kişilər aldanır göz yaşlarına.

Kövrək anlarında kiməm sənə mən?!
üzümü söykəyim bəlkə yenə mən
Duzsuz qəmlərini dada gətirən
Yanaqdan süzülən duz yaşlarına?!—
Kişilər aldanır göz yaşlarına.

Həsrət yağışında az islanmadın,
Leysanla sönmadi alovun, odun.
Qadına bənzəyən sirli həyatın
Nəğməkar, dözmüsən, döz yaslarına—
Şairlər aldanır göz yaşlarına.

کیشیلر آلدانیر گؤز یاشلارینا

یوسف نغمه کار

منی گؤز یاشینلا چاشدیرما بئله،
کیشیلر آلدانیر گؤز یاشلارینا.
آغلایا-آغلایا سؤز دئمه بیر ده،
یاراشماز او تیترک سؤز یاشلارینا-
کیشیلر آلدانیر گؤز یاشلارینا.

آغلا، بو دردلرین یوزونو آغلا،
آما دوغرو-دوروست اؤزونو آغلا،
مادام آغلاییرسان، دوزونو آغلا
قوی من ده اینانیم دوز یاشلارینا-
کیشیلر آلدانیر گؤز یاشلارینا.

گورشادلار داغلاری بوروین کیمی،
سئللر قایالاری کوروین کیمی،
اوشاق اویونجاغا کیریین کیمی،
اویوسون بو دره، دوز یاشلارینا-
کیشیلر آلدانیر گؤز یاشلارینا.

کؤورک آنلاریندا کیمم سنه من؟!
اوزومو سؤیکه ییم بلکه یئنه من
دوزسوز غملرینی دادا گتیرن
یاناقدان سوزولن دوز یاشلارینا؟!-
کیشیلر آلدانیر گؤز یاشلارینا.

حسرت یاغیشیندا آز ایسلانمادین،
لئیسانلا سؤنمه دی آلووون، اودون.

"QAYITMA QURBAN OLUM"..

ARZU GÖYTÜRK

Çıxıb getmək olmayır,
zülümdü bu ayrılıq.
Bilirəm ömrüm-günüm,
ölümdü bu ayrılıq...

Ürək fəryad eyləyər
sinədə, səsi çıxmaz.
Göz yaşına boğular
adam...nəfəsi çıxmaz...

Son dəfə gözümə bax,
son dəfə tut əlimi.
"Hicran mələyi" gəlir,
aparmağa dəlini...

Ayrılaq gözüm nuru,
əzablı olsa da get.
Ümüdüm göz yaşımda
batıb, boğulsa da get...

Ayrılığın gözəlin,
məsumunu yaşayaq.
Taleyə nə yazılıb
susaq, onu yaşayaq...

Get, səni "ulduzların
günəşin" gözləyir get.
Sən özgə çırağısan
atəşin gözləyir get!..

Bilirsən ki dəliyəm,
bilinməz sağım-solum.
"Geri qayıt" desəm də,
qayıtma qurban olum....

"قاییتما قوربان اولوم"..

آرزو گؤی تورک

چیخیب گئتمک اولماییر،
طولومدو بو آیریلیق.
بیلیرم عؤمروم-گونوم،
اؤلومدو بو آیریلیق...

اورک فریاد ائیله‌یَر،
سینه‌ده، سسی چیخماز.
گؤز یاشینا بوغولار،
آدام...نفسی چیخماز...

سون دفعه گؤزومه باخ،
سون دفعه توت الیمی.
"هیجران ملگی" گلیر،
آپارماغا دلینی...

آیریلاق گؤزوم نورو،
عذابلی اولسا دا گئت.
اومودوم گؤز یاشیمدا
باتیب، بوغولسا دا گئت...

آیریلیغین گؤزَلین،
معصومونو یاشایاق.
طالعیه نه یازیلیب،
سوساق، اونو یاشایاق...

گئت، سنی "اولدوزلارین،
گونشین" گؤزله‌ییر گئت.
سن اؤزگه چیراغیسان،
آتشین گؤزله‌ییر گئت!..

بیلیرسن کی دلی یم،
بیلینمز ساغیم-سولوم.
"گئری قاییت" دئسم ده،
قاییتما قوربان اولوم....

AŞK

Hacer ALIOĞLU YAKUTI

Aşk bir ummandır derinde,
Dalmayınca anlaşılmaz.
Geceler boyu seyrinde,
Kalmayınca anlaşılmaz.

Ya Nil olur Ya da Tuna,
Hükmetmesi zordur ona,
Hayal edip uykusuna,
Dalmayınca anlaşılmaz.

Çıkarsın hüzün dağına,
Kan düşer göz çanağına,
Gözyaşları yastığına,
Dolmayınca anlaşılmaz.

Her gönülde yakmaz ışık,
Hasret çektirendir maşuk,
Uğruna divane aşık,
Olmayınca anlaşılmaz.

Yakuti aşk deme fani,
Aciz kılar tende canı,
Kalp evinde o cananı,
Bulmayınca anlaşılmaz.

عشق

هاجر عالی اوغلو یاقوتی

عشق بیر عماندیر درینده،
دالمایینجا آنلاشیلماز.
گئجه لر بویو سئیرینده،
قالمایینجا آنلاشیلماز.

یا نیل اولور یا دا تونا،
حوکم ائتمه سی زوردور اونا،
خایال ائدیب اویخوسونا،
دالمایینجا آنلاشیلماز.

چیخارسان حوزون داغینا،
قان دوشر گؤز چاناغینا،
گؤزیاشلاری یاستیغینا،
دولمایینجا آنلاشیلماز.

هر کؤنولده یاخماز ایشیق،
حسرت چکدیرندیر معشوق،
اوغرونا دیوانه عاشیق،
اولمایینجا آنلاشیلماز.

یاقوتی عشق دئمه فانی،
عاجیز قیلار تنده جانی،
قلب ائوینده او جانانی،
بولمایینجا آنلاشیلماز.

HALAY

Həmid GƏNCƏ

Konuşmağa aciz kalibdir dilim,
Göz okşayir gözel yüzün sevgilim,
Gülümse ki dünya gülsün ben gülüm,
Oturaram daş üstünde yolunda,
"Şık şık bilerzik kolunda kolunda"

Zülfü kara beyaz yüzde kara hal,
Arı çekir dodakindan şire bal,
Göz okşayir gözel yüze mah cemal,
Qardan beyaz bileginde elinde,
"Şık şık bilerzik kolunda kolunda"

Qamaşdıra bilmez güneş gözünü,
Ay utanar görse senin yüzünü,
Heç kokmadan diyeceyem düzünü,
Gözeller eyleşib sağda solunda,
"Şık şık bilerzik kolunda kolunda"

Naz edirsen aşiqini yakirsan,
Van gölüne humar humar bakırsan,
Horon halay ile türkü okursan,
Altun üzük barmaqında elinde,
"Şık şık bilerzik kolunda kolunda"

شیک شیک بیلرزیک

حمید گنجه

کونوشماغا عاجیز کالیب دیر دیلیم،
گؤز اوخشایير گؤزل یوزون سئوگیلیم،
گولومسه کی دونیا گولسون بن گولوم،
اوتورارام تاش اوستونده یولوندا،
شیک شیک بیلرزیک کولوندا کولوندا.

زولفو قارا بیاض اوزده قارا خال،
آری چکیر دوداکیندان شیره بال،
گؤز اوخشایير گؤزل یوزه مه جمال،
قاردان بیاض بیلگینده ، الینده،
شیک شیک بیلرزیک کولوندا کولوندا.

قاماشدیرا بیلمئز گونش گؤزونو،
آی اوسانار گؤرسه سنین یوزونو،
هئچ قوخمادان دییه جیم دوزونو،
گؤزل لر ایلشیب ساغدا سولوندا،
شیک شیک بیلرزیک کولوندا کولوندا.

ناز ائدیرسن عاشیقی نی یاکیرسان،
وان گؤلونه خمار خمار باکیرسان،
هورون هالای ایله تورکو اوخورسان،
آلتین اوزوک بارماقیندا الینده،
شیک شیک بیلرزیک کولوندا کولوندا.

DERDIM VE ILACIM TELAFER

Abbas NECCAR OĞLU
Irak – Telafer

Gece olur uyku görmez gözlerim,
Her dem seni yadlar gönlüm telafer.
Yalniem işiten yoktur sözulerim ,
Aklım fikrim kalbım dilim telafer.

Vücudum gurbette kalb telaferde,
Günlerim geçiyor gemde kederde,
Derdim kime açim garip diyarde,
Zehir dibi plup balim telafer.

Seni seven bilir kadrin kiymetin,
Her senden ayrılan çeker hasretin,
Böyle sensiz yoktur dadi hayatin,
Sevday alip sağim solım telafer.

Cekiyorum gurbet elde ben acı,
Komşunun yimegi tok itmez açı,
Yaddan çıkmaz incir nar dut agacı,
Bahçem barım Türkmen elim telafer.

Telaferden ayrilari hastayım,
Ben özgünem gönül sonğun yastayım,
Olmamiş guraydım son nefesteyim,
Zelimlar elinde mazlum telafer.

Neccar oğlu gelir gün bilinir hak,
Cezasını bolur yapanlar tozak,
Kardeşi kardeşten edenler uzek,
Kara günler bize ölüm telafer.

دردیم وه علاجیم تلعفر

عباس نجار اوغلو
عراق - تلعفر

گئجه اولور اویخو گؤرمز گؤزلریم،
هر دم سنی یادلار گؤنلوم تلعفر.
یالنیم ائشیدن یوخدور سؤزولریم،
عاقلیم فیکریم قلبیم دیلیم تلعفر.

ووجودوم غوربتده قلب تلعفرده،
گونلریم گئچییور غمده، کدرده،
دردیم کیمه آچیم غریب دیاردا،
زهیر دیبی پلوپ بالیم تلعفر.

سنی سئون بیلیر قدرین قییمتین،
هر سندن آیریلان چکر حسرتین،
بؤیله سنسیز یوخدور دادی حایاتین،
سئودای آلیب ساغیم سولوم تلعفر.

چکیرم غوربت ائلده من آجی،
قومشونون یئمگی توخ ایتمز آجی،
یاددان چیخماز اینجیر نار، توت آغاجی،
باغچام باریم تورکمن ائلیم تلعفر.

تلعفردن آیریلاری خسته یم،
من اؤزگونم کؤنول سونغون یاستایام،
اؤلمه میش گؤره یدیم سون نفسده یم،
ظالیملر الینده مظلوم تلعفر.

نجار اوغلو گلیر گون بیلینیر حاق،
جزاسینی بولور یاپانلار دوزاق،
قارداشی قارداشدان ائدنلر اوزاق،
قارا گونلر بیزه اؤلوم تلعفر.

ŞEHİD

Abdull CABAR ABDİ OĞLU(HAK AŞIK)
Irak – Telafer

Felek vırdı beni ağlattı canda,
Kardeşsiz bin kere ölmekti günde
Almış iki gözüm görem bakanda,
Kardeşsiz bin kere ölmekti günde.

Sevgilim kardeşim güneşim ayım,
Dünyaya bir geldük sen ekkiz tayım,
Hep dünya bir yana sen yalnız sayım,
Kardeşsiz bin kere ölmekti günde.

Ördek kibi gezer geldim göllere,
Kardeşsizlik beni salmış dillere,
Kahır edip saldı gurbet illere,
Kardeşsiz bin kere ölmekti günde.

Hilel kaşım kardeş gözüm üstüne,
Söz söyliyen yoktu sözüm üstüne,
Başin salan kardeş dizim üstüne,
Kardeşsiz bin kere ölmekti günde.

Kardeşsiz bir kötü zamana geldim,
Çektim acıları zavallı kaldım,
Olur olmaz kardeş kapilar çaldım,
Kardeşsiz bin kere ölmekti günde.

Güneşim doğmuyor sabah olmuyor,
Kardeşsiz ocağım sonar bulmuyor,
Ağlar kalbim yaram düze gelemiyor,
Kardeşsiz bin kere ölmekti günde.

Kardeşsiz ölmeden can öldürdüler,
Hayalimda yanan ocak kurdular,
HAK AŞIK Kardeşsiz canın aldılar,
Kardeşsiz bin kere ölmekti günde.

شهید

حاق عاشیق عبدالجبار عبدی اوغلو
عراق - تلعفر

فلک ووردی منی آغلاتدی جاندا،
قارداشسیز مین کره اؤلمکدی گونده.
آلمیش ایکی گؤزوم گؤرم باخاندا،
قارداشسیز مین کره اؤلمکدی گونده.

سئوگیلیم قارداشیم گونشیم، آییم،
دونیایا بیر گلدیک سن ائککیز تاییم،
هپ دونیا بیر یانا سن یالنیز ساییم،
قارداشسیز مین کره اؤلمکدی گونده.

اؤردک کیمی گزر گئلدیم گؤللره،
قارداشسیزلیق منی سالمیش دیللره،
قهر ائدیب سالدی غوربت ایللره،
قارداشسیز مین کره اؤلمکدی گونده.

هیلال قاشیم قارداش گؤزوم اوستونه،
سؤز سؤیله یین یوخدو سؤزوم اوستونه،
باشین سالان قارداش دیزیم اوستونه،
قارداشسیز مین کره اؤلمکدی گونده.

قارداشسیز بیر کؤتو زاماناگئلدیم،
چکدیم آجیلاری زاواللی قالدیم،
اولور اولماز قارداش قاپیلار چالدیم،
قارداشسیز مین کره اؤلمکدی گونده.

گونشیم دوغمایبر صاباح اولمویور،
قارداشسیز اوجاغیم سؤنر بولمویور،
آغلار کالبیم یارام دوزه گلمییور،
قارداشسیز مین کره اؤلمکدی گونده.

قارداشسیز اؤلمه دن جان اؤلدوردولر،
خیالیمدا یانان اوجاق قودورلار،
حاق عاشیق قارداشسیز جانین آلدیلار،
قارداشسیز مین کره اؤلمکدی گونده.

KANAAT

Mohammed AMİN AREF
IRAK – TELAFER

Adama verilen nimet az değil,
Nimetlere şekir olanlar azdır.
Hakikati gören heble göz değil,
Onun için hakkı bilenler azdır.

Halıkın vergisi halkına çoktır,
Çoğunun fazline imani yoktur,
Zahitin dünyada gözleri toktır,
Dünyasin yoluna salanlar azdır.

Sanılmaz verilen adama nimet,
Boşa değil onda elbet var hikmet,
Adam alsın gerek her şeyden ibret,
Hayatta ibretçok alanlar azdır.

Kazançlıdır insan nefsini otsa,
Salanda kellesin yastığa yatsa,
Namazın kıldısa orucun tutsa,
Namazın vaktında kılanlar azdır.

Rahmatı geniştir adı rahmandır,
Nimetin büyüğü halka imandır,
Imanı olmıyan halı yamandır,
Imanın şerefin bulanlar azdır.

Teklifin etmedi kuluna zahmet,
Teklifi dünyada ihsana davet,
Gerek onu adam etmesin minnet,
Boyun eğen hakka gelenler azdır.

Nimetine kani hayatta olan,
Nefsinde nimetin kadrini bilen,
Sabrında mihnetin yüzünden gülen,
Mihnetin yüzünden gülenler azdır.

Adam oğlu misak verdi allaha,
Misakından dünen batar günaha,
Işi kalır artk hasreta aha,
Ahdında buzaman kalanlar azdır.

Mert adam suçlansa suçunu giyer,
Çekilmez hiç haktan nefsine kıyar,
Emin- den sor sana manasın diyer,
Hak yolunda bu gün ölenler azdır.

قناعت

محمد امین عارف
عراق - تلعفر

آداما وئریلن نعمت آز دگیل،
نعمتلره شاکیر اولانلار آزدیر.
حقیقتی گؤرن حبله گؤز دگیل،
اونون ایچین حاققی بیلنلر آزدیر.

خالیقین وئرگیسی خالقینا چوخدیر،
چوخونون فضلینه ایمانی یوخدور ،
زاهیدین دونیادا گؤزلری توخدور،
دونیاسین یولونا سالانلار آزدیر.

سانیلماز وئریلن آداما نعمت،
بوشا دگیل اوندا البت وار حیکمت،
آدام آلسین گرک هر شئیدن عبرت،
حایاتدا عبرت چوخ، آلانلار آزدیر.

کازانجلیدیر اینسان نفسینی اودسا،
سالاندا کلله سین یاستیغا یاتسا،
نامازین قیلدیسا اوروجون توتسا،
نامازین واختیندا قیلانلار آزدیر.

رحمتی گنیشدیر آدی رحماندیر،
نعمتین بؤیوگو خالقا ایماندیر،
ایمانی اولمایان حالی یاماندیر،
ایمانین شرفین بولانلار آزدیر.

تکلیفین ائتمدی قولونا زحمت،
تکلیفی دونیادا ایحسانا دعوت،
گرک اونو آدام ائتمه سین مینت،
بویون اَیَن حاققا گلنلر آزدیر.

نعمتینه قانع حایاتدا اولان،
نفسینده نعمتین قدرینی بیلن،
صبرینده محنتین اوزوندن گولن،
مهنتین وزوندن گولنلر آزدیر.

آدام اوغلو میثاق وئردی آلله ا،
میثاقیندان دونن باتار گوناها،
ایشی قالیر آرتیق حسرته آها،
عهدینده بوزامان قالانلار آزدیر.

مرد آدام سوچلانسا سوچونو گییر،
اکیلمز هیچ حاقدان نفسینه قییار،
امین دن سور سنه معناسین دئیر،
حاق یولوندا بو گون اؤلنلر آزدیر.

ADAM

Aypara MEHMAN

Bənzəmirsən özünə bu sən o sən deyilsən,
Hanı o tanıdığım arxamdaki dağ adam.
Saçımdan bir tel düşsə özünə dərd eyləyən,
Sevincimə sevinən,qəmimə ortaq adam.

Darıxmayırsanmı heç,düşmürəmmi yadına,
Yoxsa duyğun qalmayıb bu dəlisov qadına,
İyirmi dört saat atıb cəhənnəmin oduna,
Çəkdirərmi bir belə dağ üstünə dağ adam?

Qəsd etdiyin qəlbimdir,orda neçə arzu var,
Yetər,qədər biçməyə fələk adlı dərzi var,
Əzab vermənin də bir üsulu var, tərzı var,
Dərdin aşır boyumu,etmirsənmi ağ,adam?!

Hayatımdan gedəndən düzənim alt üst olub,
Bədənim yorğun düşüb,fikirlərim süst olub,
Həsrətinlə savaşda ürəyim şikəst olub,
Bu nə cür bir imtahan,bu nə cür sınaq, adam?!

Niyə o barmaqların saçıma deyil daraq,
Zülmət gecələrimə varlığın tutmur çıraq,
Bilmirsənmi bu qəlbdə havalar keçir quraq,
Arada üzərimə yağış olub yağ,adam!

Kədər qəpik-kuruştur,xoşbəxtliksə çox baha,
Bir ucuz ölüm gəlsin qovuşdursun Allah a,
Mən çıxmasam da olar eybi yoxdur sabaha,
Təki sənin həmişə canın olsun sağ,adam!

آدام

آیپارا مئهمان

**بنزمیرسن اؤزونه بو سن او سن دئییلسن،
هانی او تانیدیغیم آرخامداکی داغ آدام.
ساچیمدان بیر تئل دوشسه اؤزونه درد ائیله‌ین،
سئوینجیمه سئوینن،غمیمه اورتاق آدام.**

**داریخماییرسانمی هئچ،دوشمورَمی یادینا،
یوخسا دویغون قالمایب بو دلی سوو قادینا،
اییرمی دؤرت ساعات آتیب جهننمین اودونا،
چکدیررمی بیر بئله داغ اوستونه داغ آدام؟**

**قصد ائتدیگین قلبیمدیر،اوردا نئچه آرزو وار،
یئتر،قدر بیچمه‌یه فلک آدلی دَرزی وار،
عذاب وئرمه‌نین ده بیر اوصولو وار، طرزی وار،
دردین آشیر بویومو، ائتمیرسنمی آغ، آدام؟!**

**حایاتیمدان گئدندن دوزه‌نیم آلت اوست اولوب،
بدنیم یورغون دوشوب،فیکیرلریم سوست اولوب،
حسرتینله ساواشدا اورگیم شیکست اولوب،
بو نه جور بیر ایمتاحان،بو نه جور سیناق، آدام؟!**

**نیه او بارماقلارین ساچیما دئییل داراق،
ظولمت گئجه‌لریمه وارلیغین توتمور چیراق،
بیلمیرسنمی بو قلبده هاوالار کئچیر قوراق،
آرادا اوزریمه یاغیش اولوب یاغ،ادام!**

**کدر قپیک-کوروشتور،خوشبختلیکسه چوخ باها،
بیر اوجوز اؤلوم گلسین قووشدورسون آلله آ،
من چیخماسام دا اولار عئیبی یوخدور صاباحا،
تکی سنین همیشه جانین اولسون ساغ،ادام!**

SERMAYEMİN TÜMÜNÜ...

Tayyib ATMACA

Ala gözlüm güz düştü yapraklarım saraldı
Hasretin ağır bastı gen yüreğim daraldı
Bir çıngıyla tutuştuk ateşimiz kor oldu
Bu yangının sonunda kül olmaya var mısın

Gece dipsiz bir kuyu uyku nedir yitirdim
Sermayemin tümünü gözlerine yatırdım
Kirpiğimi her seher gözyaşıma batırdım
Bendimizi yıkmaya sel olmaya var mısın

Dudaklarım adına dokununca yanıyor
Almak için rengini her damarım kanıyor
Bakma betim benzime biraz başım dönüyor
Al kanımın renginde gül olmaya var mısın

Sesin yakar telleri kulağımdan öperken
Imrenerek bakarız kuşlar yuva yaparken
Kraliçe arımsın peteğini kaparken
Elvan elvan çiçekten bal olmaya var mısın

Yorgun argın kendine döndüğünde ben varım
Her mevsimim seninle oldu evvel baharım
Hem dünyada ahrette olacaksan ol karım
Özü sözü bir olan kul olmaya var mısın

سرمایه مین تومونو...

طیّب آتماجا

آلا گؤزلوم گؤز دوشدو یاپراقلاریم سارالدی
حسرتین آغیر باستی گئن اوریم دارالدی
بیر چینقییلا توتوشدوق آتشیمیز کور اولدو
بو یانغینین سونوندا کول اولماغا وار میسان

گئجه دیبسیز بیر قویو اویخو ندیر ایتیردیم
سرمایه مین تومونو گؤزلرینه یاتیردیم
کیرپیگیمی هر سحر گؤزیاشیما باتیردیم
بندیمیزی یئخماغا سئل اولماغا وار میسان

دوداقلاریم آدینا توخونونجا یانییر
آلماق ایچین رنگینی هر داماریم کانییر
باخما بتیم بنزیمه بیرآز باشیم دؤنویور
آل قانیمین رنگینده گول اولماغا وار میسان

سسین یاخار تئللری قولاغیمدان اؤپرکن
ایمره نرک باخاریز قوشلار یووا یاپارکن
کرالیچه آریمسان پتغینی قاپارکن
الوان -الوان چیچکدن بال اولماغا وار میسان

یورغون آرغین کندینه دؤندوغونده من واریم
هر مئوسیمیم سنینله اولدو اوّل باهاریم
هم دونیادا آخرتده اولاجاقسان اول قاریم
اؤزو سؤزو بیر اولان قول اولماغا وار میسان

.....SƏN GEDƏNDƏ...

Nigar ARIF

Mən coğrafiya dərslərindən
həyatın qızarmış gözlərini görürdüm...
Vulkan kimi püskürən gerçəkləri ,
Gerçəklərin lavasında yalanların süründüyü düzənləri,
Ən uca dağların yerə çökən dizlərini görürdüm ...
Bütün ölkələrdə eyni külək əsirdi,
eyni yağış yağırdı ...
Mən özüm də ölkə idim, mən özüm də...
Sənin kimi bir ölkəni ram etmək istəyəndə,
Ürəyimdə bir zəlzələ olurdu,
Ən kobud, ən keçilməz yerlərin lap dərin qatlarında
Şirin sular axırdı,saf bulaqlar axırdı...
Ən uzaq ərazidə ən gözəl varlıqların üzlərini görürdüm..
Sən gedəndə...
Sən gedəndə başa düşdüm ki,
insan ən böyük aysberqdi
Illərlə əriyib ölümə doğru axır ...

سن گئدنده...

نیگار عاریف

من جوغرافییا درسلریندن
حیاتین قیزارمیش گؤزلرینی گؤروردوم...
وولکان کیمی پوسکورن گئرچکئری،
گئرجکلرین لاواسیندا یالانلارین سوروندویو دوزنلری،
ان اوجا داغلارین یئره چؤکن دیزلرینی گؤروردوم...
بوتون اولکه لرده عینی کولک اسیردی،
عینی یاغیش یاغیردی...
من اؤزوم ده اولکه ایدیم،من اؤزوم ده...
سنین کیمی بیر اولکه نی رام ائتمک ایسته یندە،
اوریمده بیر زلزله اولوردو،
ان کوبود، ان کچیلمز یئرلرین لاپ درین قاتلاریندا
شیرین سولار آخیردی،صاف بولاقلار آخیردی...
ان اوزاق اراضیده ان گؤزل وارلیقلارین اؤزلرینی گؤروردوم..
سن گئدنده...
سن گئدنده باشادوشدوم کی،
اینسان ان بؤیوک آیسبَرقدی
ایللرله اریب اؤلومه دوغرو آخیر...

BIR YALANMIŞ ƏVVƏLIM

Ramiz QUSARÇAYLI

Nəsimiyə

Bir yalanmış əvvəlim,
Sonumdan çıxmışam mən.
Öz urvamdı, öz əlim,
Ünumdan çıxmışam mən.

Nə bağır, nə bağrı yar,
Zaval çoxmuş doğruya,
Can ağriya-ağrıya,
Canımdan çıxmışam mən.

Baxt qovur, baxır insan,
İçinə yağır insan,
Qanından axır insan,
Qanımdan çıxmışam mən.

بیر یالانمیش اوّلیم

رامیز قوسارچایلی

نسیمی یه

بیر یالانمیش اوّلیم،
سونومدان چیخمیشام من.
اؤز اوروامدی، اؤز الیم،
اونومدان چیخمیشام من.

نه باغیر، نه باغری یار،
زاوال چوخموش دوغرویا،
جان آغریا-آغریا
جانیمدان چیخمیشام من.

باخت قووور، باخیر اینسان،
ایچینه یاغیر اینسان،
قانیندان آخیر اینسان،
قانیمدان چیخمیشام من.

HƏMİN GÜNLƏR GƏLMƏDİ

Eldar İSMAYIL BÖYÜKTÜRK

Keçən gün axşamladı,
Qalxıb səhər gəlmədi.
Aylar ilə qovuşdu,
Qış təzə- tər gəlmədi.

Ömrü bir də dinlədim,
Sapa düzdüm çinlədim.
Cavanlığı ünlədim,
Ondan xəbər gəlmədi.

Keçənlər yada düşdü,
Sevinclə qəm bölüşdü.
Gün gəldi, gün ötüşdü,
Həmin günlər gəlmədi.

همین گونلر گلمه‌دی

ائلدار اسماعیل بؤیوک تورک

کئچن گون آخشاملادی،
قالخیب سحر گلمه‌دی.
آیلار ایله قووشدو،
قیش تزه- تر گلمه‌دی.

عؤمرو بیر ده دینله‌دیم،
ساپا دوزدوم چینله‌دیم.
جاوانلیغی اونله‌دیم،
اوندان خبر گلمه‌دی.

کئچنلر یادا دوشدو،
سئوینجله غم بؤلوشدو.
گون گلدی، گون اؤتوشدو،
همین گونلر گلمه‌دی.